**"Sumqayıtelektrikşəbəkə" Səhmdar Cəmiyyətinin yaradılması və idarəetməyə verilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Sumqayıt şəhəri elektrik şəbəkəsinin fəaliyyətinin sağlamlaşdırılması və şəhərin elektrik enerjisi ilə təminatının yaxşılaşdırılması məqsədi ilə qərara alıram:

1. Sumqayıt şəhər Elektrik Təchizatı Müəssisəsi ləğv edilsin.

2. Ləğv edilmiş Sumqayıt şəhər Elektrik Təchizatı Müəssisəsinin və "Azərenerji" Səhmdar Cəmiyyətinin Sumqayıt elektrik şəbəkəsinin Sumqayıt şəhərini elektrik enerjisi ilə təchiz edən və onun inzibati ərazisində yerləşən paylayıcı hissəsinin bazasında səhmləri ilkin mərhələdə dövlətə məxsus olan "Sumqayıtelektrikşəbəkə" açıq tipli Səhmdar Cəmiyyəti yaradılsın.

3. Azərbaycan Respublikasının Dövlət Əmlakı Nazirliyinə tapşırılsın:

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq "Sumqayıtelektrikşəbəkə" Səhmdar Cəmiyyətinin yaradılması ilə bağlı zəruri tədbirləri həyata keçirsin;

"Sumqayıtelektrikşəbəkə" Səhmdar Cəmiyyəti idarə heyətinin sədrini və üzvlərini təyin etsin, habelə Sumqayıt şəhərinin elektrik enerjisi ilə etibarlı təchizatını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikasının Dövlət Əmlakı Nazirliyinin, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin, Sumqayıt Şəhər İcra Hakimiyyətinin və "Azərenerji" Səhmdar Cəmiyyətinin nümayəndələrindən ibarət Müşahidə Şurasının tərkibini təsdiq etsin;

"Sumqayıtelektrikşəbəkə" Səhmdar Cəmiyyətinin qanunvericilikdə nəzərdə tutulmuş qaydada əlverişli şərtlərlə uzunmüddətli idarəetməyə verilməsi üçün açıq müsabiqənin keçirilməsini təmin etsin və müsabiqənin qalibi ilə müvafiq müqavilə bağlansın.

4. "Azərenerji" Səhmdar Cəmiyyətinə tapşırılsın ki, "Sumqayıtelektrikşəbəkə" Səhmdar Cəmiyyəti ilə birlikdə Sumqayıt şəhəri üzrə elektrik enerjisinin nəqli və paylanmasının təhlükəsizliyinə və etibarlılığına nail olmaq məqsədi ilə elektrik enerjisi sisteminin operativ idarəetmə sxemini və mexanizmini 3 ay müddətində yenidən işləyib müəyyən edilmiş qaydada təsdiq etsin.[1]

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

6. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

**Bakı şəhəri, 1 iyul 2000-ci il**

**№ 459**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2943.**